# Şuşa Qlobal Forumu Azərbaycan həqiqətlərini dünyaya çatdıran beynəlxalq media platformasıdır

**Qarabağın azadlığının rəmzi mənasını özündə daşıyan və artıq 2023-cü ildən bəri üçüncü dəfədir ki, işğaldan azad edilmiş bölgəmizdə keçirilən Şuşa Qlobal Media Forumu öz aktual mövzuları, media sahəsində yeni yanaşmaları, qlobal çağırışları ilə beynəlxalq ictimaiyyətin ildən-ilə daha çox diqqət və maraq mərkəzinə çevrilir.**

Bu il keçirilən III Şuşa Qlobal Forumunda 52 ölkədən 140 xarici qonağın, o cümlədən 30-a yaxın informasiya agentliyinin, 7 beynəlxalq təşkilatın, 80 media strukturunun, eləcə də digər ixtisaslaşmış qurumların nümayəndələrinin iştirak etməsi də təsadüfi deyildi. Heç şübhəsiz, Şuşa Qlobal Media forumlarına bu cür yüksək diqqətin əsas səbəblərindən biri tədbir iştirakçılarının Prezident İlham Əliyevlə birbaşa dialoq imkanına malik olmalarıdır. Qarabağ torpağında keçirilən bu forumlarda Azərbaycan Prezidenti dünya gündəmini məşğul edən məsələlərlə bağlı müxtəlif suallara sərrast cavabları, hadisələri konseptual və fundamental dəyərləndirmələri ilə xüsusi diqqət çəkir. Uzaqgörən siyasətçi İlham Əliyevin forumda səsləndirdiyi obyektivliyə dayanan və reallığı olduğu kimi əks etdirən fikirləri beynəlxalq səviyyədə böyük maraqla qarşılanır.

ABŞ Prezidenti Donald Trampın özünün "Truth" sosial şəbəkə səhifəsində Prezident İlham Əliyevin Xankəndidə keçirilən III Şuşa Qlobal Media Forumunun iştirakçıları ilə görüşündə onunla bağlı söylədiyi fikirlərdən ibarət çıxışını paylaşması da buna bariz nümunələrdən biridir.

Prezident İlham Əliyev çıxışının sözügedən hissəsində Donald Trampın Azərbaycan xalqı ilə ortaq fundamental, o cümlədən ailə dəyərlərini paylaşdığını və buna görə də ABŞ-də onun prezident seçilməsini istədiyini bildirib. Deyib ki, Tramp yeganə ABŞ Prezidentidir ki, müharibə başlatmayıb, əksinə, müharibələrə son qoymaq məqsədi güdür: "Biz həmçinin Azərbaycana və Ermənistana son nəticədə razılığa gəlməyə kömək etmək səylərinə görə ona çox minnətdarıq. O, beynəlxalq təhlükəsizlik üzrə daha qlobal məsələlərlə məşğul olmasına baxmayaraq, Cənubi Qafqazdakı şəraiti də diqqət mərkəzində saxlayır".

Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması baxımından da mühüm rola malik bu forumun birincisi - I Qlobal Media forumu 2023-cü ildə Zəfər şəhərimizdə keçirilib. Bu beynəlxalq tədbir mədəniyyət paytaxtımızın azadlığından sonra burada keçirilən ilk böyük beynəlxalq tədbir kimi də müstəsna əhəmiyyət daşıyır. Bunun sayəsində ölkəmizin, xalqımızın həqiqətlərinin beynəlxalq media nümayəndələrinə çatdırılması birbaşa yerində mümkün olub.

"4-cü Sənaye İnqilabı dövründə yeni media" mövzusunda I Şuşa Qlobal Media Forumunun açılış mərasimi zamanı Prezident İlham Əliyev öz çıxışında söyləmişdir ki, bu, bizim ölkəmiz üçün və əlbəttə, Qarabağ bölgəsi üçün çox möhtəşəm bir tədbirdir.

2024-cü ildə "Yalan məlumatların ifşası: Dezinformasiyaya qarşı mübarizə" mövzusunda keçirilən II Şuşa Qlobal Media Forumuna 49 xarici ölkədən iştirakçı qatılmışdı.

Bu il iyulun 19-da Xankəndidə "Rəqəmsal keçidlər: Süni intellekt dövründə informasiya və media dayanıqlılığının gücləndirilməsi" mövzusunda keçirilən III Şuşa Qlobal Media Forumu da kifayət qədər geniş spektrli və müzakirələri baxımından olduqca maraqlı keçdi. Xankəndidə Prezident İlham Əliyevin III Şuşa Qlobal Media Forumunun iştirakçıları ilə görüşü, onların suallarını ətraflı cavablandırması, ölkəmiz, region, ümumiyyətlə, dünyada gedən istər siyasi, iqtisadi proseslərlə, istərsə də müharibələr və qlobal sülhün əldə olunması ilə əlaqədar ətraflı və məzmunlu çıxışı xüsusilə yaddaqalan oldu.

Həmin görüşdə Şuşa Qlobal Media Forumunun əhəmiyyətini vurğulayan Prezident İlham Əliyev söylədi ki, üçüncü dəfədir belə bir mühüm tədbir Qarabağda keçirilir və o, artıq ənənəvi xarakter alıb: "Ümid edirəm ki, bu ənənə davam edəcək və vaxt keçdikcə qonaqların sayı artır, coğrafi əhatə daha da genişlənir. Bütün bunlar bir daha göstərir ki, ən mühüm mövzuların mehriban şəraitdə açıq müzakirələrinə böyük ehtiyac var. Söhbət təkcə mediadan deyil, həmçinin qlobal gündəlikdən gedir. Dünyada vəziyyət sürətlə dəyişir. Əgər ötən il Şuşada keçirilmiş forumdan başlasaq görərik ki, nə qədər çox dəyişikliklər baş verib".

Xankəndi görüşü zamanı Prezident İlham Əliyev ölkəmizin gerçəklərini, bölgədə yaranan yeni reallıqları dünyanın nəzərinə bir daha çatdırdı. Azərbaycan lideri bu mötəbər kürsüdən bəyan etdi ki, Azərbaycan heç zaman işğal faktı ilə barışmadı və bu cür haqsızlıqla üzləşənlərə də bunu tövsiyə edir. Prezident İlham Əliyev əlavə etdi ki, bizim Qələbəmiz, - bu, ədalətli və tam qələbədir, - göstərdi ki, ədalət var, sadəcə, ona nail olmaq lazımdır: "Bu ədaləti əldə etmək üçün hər gün işləmək, hər gün qələbəyə yaxınlaşmaq lazımdır... ...Əlbəttə, ən vacib amil cəmiyyətin həmrəyliyidir. Həmrəyliyin Prezident, Ali Baş Komandan olaraq mənə verdiyi mənəvi güc çox böyük idi. Əmin idim ki, xalq mənim arxamda dayanacaq. Bu da yəqin ki, həlledici amillərdən biri oldu".

Forum iştirakçılarının suallarını cavablandıran Prezident İlham Əliyev Azərbaycanın "yaşıl gündəliyi"ndən də bəhs etdi, eyni zamanda nəqliyyat və enerji qovşağı kimi mühüm geostrateji roluna toxundu və regionun təkcə Cənubi Qafqazı əhatə etmədiyini, bizim daha geniş coğrafiyanı əhatə etdiyimizi bildirdi: "Biz artıq bunu proqnozlaşdıra bilərik ki, Azərbaycan, Mərkəzi Asiya və Avropa ölkələri arasında imzalanmış sənədlər Azərbaycanın bir növ qovşaq olacağını nümayiş etdirir. Azərbaycan nəqliyyat, istehsal və paylama nöqtəsi olacaqdır. Bizim çox böyük artım potensialımız var".

Azərbaycanın beynəlxalq nüfuz qazanmasında vacib rol oynayan amilləri sadalayan Prezident qeyd etdi ki, beynəlxalq hüquqa və BMT Nizamnaməsinə sadiqlik həm də fundamental amildir və hesab edir ki, bu, Azərbaycanın beynəlxalq aləmdə layiqli yer tutmasına imkan verib.

"Azərbaycan eyni zamanda həm Avropa, həm də müsəlman təşkilatlarının üzvü olan və Avropa İttifaqı, İslam Əməkdaşlıq Təşkilatı, ECO və bir çox başqa qurum vasitəsilə sammit formatlarında fəal iştirak edən azsaylı ölkələrdən biridir" söyləyən dövlətimizin başçısı bildirdi ki, Azərbaycanın nüfuzunu vurğulayan daha bir mühüm amil D-8 təşkilatına yeni üzv olan ilk və yeganə ölkə olmasıdır.

Göründüyü kimi, artıq ənənə halını almış Şuşa Media forumları milli maraqlarını beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində güc yolu ilə təmin edən Azərbaycanın həqiqətlərini dünyaya çatdırmaqda əvəzsiz rol oynayır. Həmçinin bu qlobal tədbir ölkəmizin yürütdüyü çoxvektorlu və sülhü dəstəkləyən xarici siyasət kursunun xarici media vasitəsilə qlobal arenada tanıdılmasına vacib zəmin yaradır.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*